# CAN HƏKİM

*Mus.: Ələkbər Tağıyev, söz.: Mirmehdi Seyidzadə*

Qəlbi çiçəklərdən, güllərdən təmiz,
Bizə sirdaş olan mehriban həkim.
Yanına gəlirik olsa dərdimiz,
Edirsən hər dərdə sən dərman, həkim.

*Nəq.:*
Ellər loğman deyib sənə əzəldən,
Sınıq könülləri sənsən düzəldən,
Ömrün baharının vaxtı xəzəldən,
Gəl qoru, min kərə qoru, can həkim,
Can həkim, mehriban, can həkim.

Bəzən incitsə də qəlbini kədər,
Səni gülərüzlü görür xəstələr,
Dərmanın çox acı olsa da əgər,
Şəkər gülüşlüsən hər zaman, həkim.